# Qalib gəldi, qalib getdi...

**Anar**
Xalq yazıçısı

**Annotasiya.** Məqalədə Ulu öndər Heydər Əliyev haqqında unudulmaz xatirələr qısa və dolğun şəkildə öz əksini tapmışdır. Müəllif böyük qürur hissi ilə dahi şəxsiyyətin xarakterində cəmləşmiş xeyirxah əməllərdən fəxrlə söhbət açır. Əvəzolunmaz rəhbərin yüksək insani keyfiyyətlərini konkret epizodlarla yada salır. H.Əliyevin vaxtilə qətiyyətlə söylədiyi "Şuşaya gedəcəyik, hökman gedəcəyik" – sözlərinin həqiqətə çevrildiyini və bu şərəfli vəzifənin onun layiqli davamçısı – oğlu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yerinə yetirildiyini Azərbaycan xalqının ən böyük uğuru hesab edir.
**Açar sözlər:** Heydər Əliyev, böyük şəxsiyyət, siyasi çəkişmələr, müdrik siyasətçi, müzəffər ordumuz

# He came as a winner, left as a winner...

**Anar**
People's writer

**Abstract.** The unforgettable memoirs about the Great Leader Heydar Aliyev are briefly and fully reflected in the article. The author proudly talks about the good deeds of a genius personality with great pride. He reminds the high human qualities of an irreplaceable leader with specific episodes. The words of Heydar Aliyev – "We will go to Shusha, we will definitely go" spoken with determination became a reality and this honorable task was fulfilled under the leadership of his worthy successor – his son, Commander-in-Chief Ilham Aliyev; and author considers this a great success of the Azerbaijani people.
**Keywords:** Heydar Aliyev, great personality, political conflicts, a wise politician, our victorious army

Neçə aydır ürəyimiz səksəkədə idi. Vaxtaşırı səhhətinin yaxşılaşdığını, tezliklə geri dönəcəyini eşitsək də, nigarançılığımız səngimirdi. Onun xəstə çağının görüntülərinin – kino-video kadrlarının, adicə fotolarının meydana çıxmamasını başa düşürdüm, çünki xasiyyətinə az-çox bələd idim. Xəstə, həm də ağır xəstə, həm də yaşı 80-i ötmüş bir insanın vücudunda da, sifətində də təbii ki, bir üzgünlük, zəiflik seziləcəkdi. Heydər Əliyev dostlarına da, düşmənlərinə də, doğma xalqına da bu şəkildə, bu halda görünməyə heç cür razı olmazdı. O, yaddaşlarda həmişəki kimi şax yerişli, məğrur duruşlu, xoşsifətli, gülərüzlü, bəzən də sərt, iti baxışlı bir insan kimi qalmaq istəyirdi. Və elə beləcə də qaldı. Bugünlərdə müxtəlif telekanallarda nümayiş etdirilən kadrlarda onun yalnız rəsmi surətini yox, çox təbii, çox səmimi, çox insani cizgilərini də gördük, şux zarafatlarını da eşitdik, dalğınlıq anlarının, qəmli-qüssəli məqamlarının, musiqidən təsirlənib gözlərinin yaşardığının da şahidi olduq. Əvvəllər gördüyümüz kadrlara da yenidən ayrı gözlə baxırıq.

Neçə ayın həyəcanları, təlaşları içində bir an da ümidimi itirmirdim. İnanırdım ki, bir gün Bakı hava limanında uçaqdan enib üstünə cuman jurnalistlərə təbəssümlə baxaraq: – Mətbuat səhifələrində məni neçə dəfə dəfn etmisiniz, – deyəcəkdi – görürsünüz ki, sağ-salamatam, – deyəcəkdi.

Dekabrın 12-dən 13-nə keçən məşum gecə ümidlərimiz puç oldu. ANS televiziyonu qara xəbəri bütün Azərbaycana yaydı, xalqımız yetim qaldı. İlham Əliyev və Sevil xanım atalarını, Azərbaycan böyük oğlunu, mən isə çox doğma, çox yaxın, çox əziz adamımı itirdim.

Bu sözləri tam səmimiyyətlə deyirəm. Heydər Əliyevə nə qohumluğum çatırdı, nə də yaş fərqi, ictimai mövqe etibarilə dost ola bilərdik. Amma ömrüm boyu onun diqqətini və qayğısını, isti

münasibətini duymuşdum. Bilirdim ki, istər sovet dönəmində, istərsə də müstəqillik dövründə məndən ona pis niyyətlə deyənlər az olmayıb. Yazıçıların X Qurultayında çıxış edərkən özü bu barədə danışdı. Amma onu da bilirdim ki, bütün bu danoslar mənə olan münasibətinə zərrə qədər də təsir etmirdi və edə də bilməzdi. Çünki insan sərrafı idi və kimin kim olduğunu da yaxşı bilirdi. Boğazdan yuxarı təmənnalı sözləri də gerçək əməllərdən seçib ayırırdı. Elə adamlar var ki, özləri lakey xislətli ola-ola özgəsinin səmimi hisslərinə heç cür inana bilmir. İnana bilmir ki, sevgi təmənnasız da ola bilər, hörmət qarşılıqlı da ola bilər. Mənim heç bir vəzifə sahibindən heç vaxt şəxsi umacağım olmayıb və Heydər Əliyev iş başında olanda da, olmayanda da ona eyni hörmət və rəğbət hissləri bəsləmişəm. Amma hisslərimi sağlığında ürək dolusu deyə bilməmişəm, təmtəraqlı, gurultulu sözlərlə ifadə etməmişəm. Düşünmüşəm ki, bunu ayrı cür yozacaqlar. Halbuki Heydər Əliyevin mənim haqqımda, ayrı-ayrı əsərlərim haqqında, 60 illiyimlə bağlı dediyi xoş sözlər mənim onun haqqında dediklərimdən və yazdıqlarımdan az deyil. Yalnız bir dəfə 75 illiyində «Oqonyok» jurnalının sifarişi ilə onun barəsində «Şəxsiyyətin miqyası» adlı məqalə yazmışdım.

İndi bu böyük şəxsiyyətin miqyasının o vaxt mənim yazdığımdan da ulu olduğunu etiraf edirəm. Və şübhə etmirəm ki, illər ötdükcə bu miqyasların çox-çox daha böyük olduğunu dərk edəcəyik.

Heydər Əliyevi tanıyanda çox gəncdim. Sonrakı illərdə Azərbaycan rayonlarına səfərlər zamanı, müxtəlif vaxtlarda Gəncədə, Naxçıvanda, Şuşada, habelə İstanbulda və Ankarada, Moskvada, Romada, Pekində və Şanxayda, Almatıda, Bişkekdə dövlət başçılarıyla söhbətlərində, sənətçilərlə ünsiyyətində, tarlalarda, ya küçələrdə adi adamlarla görüşlərində onu yaxından müşahidə etmək imkanım olub. Saysız-hesabsız toplantılarda, yubileylərdə onu dinləmişəm. Yazıçılarla, sənət adamlarıyla görüşlərində iştirak etmişəm, 2-3 dəfə isə təkbətək çox ətraflı, məhrəm söhbətlərimiz olub. 1997-ci ilin payızında İtaliyadan qayıdarkən təyyarədə ta Romadan Bakıyacan 3 saatdan artıq ikilikdə danışmışıq. Bu söhbətləri gündəliyimdə bütün ayrıntıları ilə və tam dəqiqliklə isti-isti qeyd etmişəm. İndi mənim bu böyük insanın xatirəsi qarşısında borcum – hafizəmdə və kağız üzərində qalmış bütün təfərrüatları, uzun illər müşahidə etdiklərimi və məhrəm söhbətlərimizin tam mətnini, eləcə də Heydər Əliyev fenomeni haqqında düşündüklərimi iri bir yazı şəklində qələmə almaqdır və mən bunu mütləq edəcəm.

Ağır itkimizin təsiri altında yazdığım bu kiçik qeydlərdə isə Heydər Əliyev taleyinin yalnız bir neçə əsas cəhəti üstündə durmaq istəyirəm. Zənnimcə, Heydər Əliyev bu dünyaya həmişə qələbə çalmaq üçün gəlmişdi.

O, heç bir vaxt qarşısına çıxan heç bir çətinliklərin qabağından qaçmazdı. Ən qorxulu vəziyyətlərdən belə zəfər çalaraq çıxardı. Xalq Cəbhəsi hakimiyyətdə olan vaxt rus qoşunlarının Azərbaycandan çıxarılmasını böyük tarixi uğur hesab edirlər. Razıyam. Amma çıxarılan ordunun yerini tutacaq milli zabitlər korpusunun əsasını axı Heydər Əliyev çox-çox qabaqlar, Sovet dönəmində Naxçıvanski adına Hərbi Məktəbi yaratmaqla, neçə-neçə gənci SSRİ-nin ali hərbi məktəblərinə göndərməklə qoymuşdu.

Sirr deyil ki, Sovet dövründə Azərbaycanın hərbi çağırışçılarını orduda tikinti batalyonlarında və mətbəxdə işlədirdilər. Böyük əhəmiyyətini yalnız 15-20 il sonra, Qarabağ davası başlananda – tam dərk etdiyimiz bu iş – milli hərbi kadrların yetişdirilməsi – sovet ehkamları üzərində qələbə idi. Azərbaycanı yalnız xammal ərazisi kimi görmək istəyənlərə qarşı – ən yeni sənaye ocaqlarının qurulması – SSRİ-nin iqtisadi əyalət siyasətinə qalib gəlməkdi. 37-ci ilin milyonlarla repressiya qurbanlarından yalnız birinin – böyük Hüseyn Cavidin nəşinin tapılıb Vətənə gətirilməsi hələ də zehinlərdə hökm sürən Stalin buzlaqlarının əridilməsi deməkdi. Azərbaycanın görkəmli sənətkarlarının yüksək ümumittifaq mükafatlarına, təltiflərinə nail olmaq yalnız o konkret şəxslərin deyil, ümumən ədəbiyyatımızın, sənətimizin və deməli, Azərbaycanımızın nüfuzunu ucaltmaqdı. Bütün bunlar – Heydər Əliyev zəkasının, iradəsinin, uzaqgörənliyinin qələbəsi idi.

Və bütün bunlar bədnam qonşularımızı qıcıqlandırır, qızışdırır, qəzəbləndirir, yuxularını qaçırırdı.

Moskvaya, mərkəzi dairələrə danos danos dalınca gedirdi. «Heydər Əliyev Naxçıvanı ermənilərdən təmizlədi, indi də Qarabağı təmizləmək niyyətindədir» -danosların əsas məğzi bu idi.

Heydər Əliyev bunu bilirdi və bunu bilə-bilə məhəl qoymurdu. Brejnevlə xoş münasibətlərinin bir səbəbi də özünü və xalqını, respublikasını mikoyanlardan, baqramyanlardan və onların tör-töküntülərindən sığorta etmək idi.

Şuşada əzəmətli Vaqif məqbərəsini, Natəvan heykəllərini ucaltmaqla, Üzeyir Hacıbəyli, Bülbül muzeylərini açmaqla, Şuşada təntənəli beynəlxalq sənət tədbirləri keçirməklə Heydər Əliyev bu qədim Azərbaycan şəhərinin milli simasını müəyyənləşdirirdi.

1987-ci ildə ermənilərin və erməni dairələrinin güclü təsiri altında olan Qorbaçovun birgə səyləri ilə Heydər Əliyev SSRİ-nin siyasi Olimpindən uzaqlaşdırıldı. Düz bir həftə sonra isə adı bədnam akademik Aqanbekyan Parisdə Qarabağ kampaniyasına start verdi.

Cəmisi bir-iki il keçdi, Qorbaçovun özü də, ölkəsi də yerlə-yeksan oldu. İndi SSRİ-nin ilk və son prezidenti vaxtını öldürmək üçün radioda uşaq nağıllarını səsləndirir və cibini doldurmaq üçün "Makdonalds"ı reklam edir. Heydər Əliyev isə XX əsrdə müstəqilliyini ikinci dəfə qazanmış milli dövlətimizin düz on il ərzində Prezidenti oldu. Özü də elə bir Prezident ki, ərazisi və əhalisi baxımından kiçik ölkənin dövlət başçısıyla ən böyük məmləkətlərin rəhbərləri hesablaşırdı. Kim qalib çıxdı? Nəinki öz hakimiyyətini qoruya bilən, başçılıq etdiyi dövləti belə bada verən Qorbaçovmu, ya parçalanmaqda olan ölkəsini xilas edən, sonrakı çevriliş cəhdlərinin qarşısını alan, bir gecə yarısı televiziya çıxışı ilə Prezident Sarayı ətrafına minlərlə insanı toplaya bilən Heydər Əliyevmi?

Heydər Əliyev Azərbaycanın mənafeyinə zidd olan heç bir güzəştə getmədi. "Siyasət – mümkün olanın sənətidir" fikri baxımından bu da qələbə idi.

2003-cü ili – ömrünün son ilini də Heydər Əliyev qalib kimi başa vurur. Geniş infarkt keçirmiş, gecəsi-gündüzü olmayan, nə şənbə, nə bazar, nə məzuniyyət, nə istirahət bilən, yaşı səksənə çatmış insan çıxış edərkən, qəlb böhranı keçirir, yıxılır, yeddi qabırğası sınır və dözülməz ağrılara tab gətirərək yenidən səhnəyə qayıdır, sözünə davam edir. Bir də yıxılır və yenə görünməmiş, inanılmaz iradə ilə səhnəyə dönür, xalqı ilə vidalaşmağa özündə güc tapır. Bu da onun yıxılması haqqında hərzə-hərzə danışan və yazan mənəviyyatsız düşüklər üzərində qələbə idi.

Dünyaya qalib kimi gəldi, dünyadan qalib kimi getdi.

Heç kəsin xidmətini danmadan müstəqil Azərbaycanın qorunmasında, qurulmasında və yaşamasında Heydər Əliyevin müstəsna rolu insafı olanların hamısına açıq-aşkardır. Bir jurnalist doğru yazıb ki, Heydər Əliyev Qulliver, ona çirkab atanlar isə liliputlardır.

Bütün keçəri, ötücü narazılıqlar, umu-küsülər, giley-güzarlar unudulub gedəcək Heydər Əliyevin möhkəmləndirdiyi, inkişaf etdirdiyi ölkə – sabit, istiqrarlı, söz, mətbuat azadlığı təmin olunmuş, müxtəlif siyasi qurumların, o cümlədən müxalifət partiyalarının fəaliyyət göstərdiyi, senzurasız, ölüm hökmsüz, sivil dünya ailəsində layiqli yer tutan demokratik Azərbaycan qalacaq. Azərbaycanın yaxın gələcəyinin təməlini bütün şər qüvvələrlə mübarizələrdə qalib çıxan Heydər Əliyev qurdu, əl-ayağına dolaşanlara rəğmən çətin doğulan əsər kimi yaratdı. Çağdaş Azərbaycan, doğrudan da, Heydər Əliyevin əsəridir. Bizim borcumuz bu əsəri yaşatmaq, qorumaq, cilalamaq və gələcək nəsillərə yetirməkdir. Bütün siyasi çəkişmələr, dartışmalar, toqquşmalar – xalqın taleyi qarşısında çox cılız görünür, böyük Tarix önündə çox kiçik həvəslər, hərisliklər, hikkələrdir.

Heydər Əliyev hər xalqa bəlkə də əsrdə bir dəfə qismət olan qənimət, nadir şəxsiyyət idi.

Həyata qalib kimi gəlmişdi. Xalqı vəfatıyla sarsıdan, sarsıdaraq birləşdirən, kədərləndirərək bütövləşdirən Heydər Əliyev ölümüylə də zəfər çaldı. Kim nə deyir desin, nə yazır yazsın, qalib gəldi, qalib getdi.

**Dekabr 2003**

2003-cü ilin məşum dekabrında Heydər Əliyevin vəfatının ağır təsiriylə yazdığım bu mətnə Tarix öz əlavəsini etdi və mən iftixarla bu əlavəni də qələmə alıram. Qarabağ və onun incisi Şuşa düşmən işğalı altında olan illərdə Prezident Heydər Əliyev tam qətiyyətlə deyirdi: Şuşaya gedəcəyik, hökman gedəcəyik.

Tarix Ulu Öndərin bu inamlı və qətiyyətli sözlərini təsdiq etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz düşməni doğma torpaqlarımızdan qovdu. Ata vəsiyyətinə əməl edən Oğul böyük qürur hissiylə: Əziz Şuşa, sən azadsan, biz qayıtdıq! – deyə bildi.

Azad olunmuş Şuşaya gedənlərin sırasında mən də vardım.
Ulu Öndər Heydər Əliyev də hamımızın qəlbində bizimlə bir yerdə azad Şuşamızda idi.

## Он пришел победителем, ушел победителем...

**Анар**
Народный писатель

**Резюме.** В статье кратко и полно отражены незабываемые воспоминания о великом лидере Гейдаре Алиеве. Автор с большой гордостью рассказывает о добрых делах гениальной личности. Конкретными эпизодами он напоминает о высоких человеческих качествах незаменимого лидера. Решительно сказанные слова Гейдара Алиева – «Мы пойдем в Шушу, мы обязательно пойдем», – стали реальностью, и эта почетная задача была выполнена под руководством его достойного преемника – его сына, Главнокомандующего Ильхама Алиева; и автор считает это большим успехом азербайджанского народа.
**Ключевые слова:** Гейдар Алиев, великая личность, политические конфликты, мудрый политик, наша победоносная армия